TARİX:28/02/2023 | VERSİYA:1.0 | № S-001/2-001

İANƏLƏRİN QAYTARILMASI ÜZRƏ

# SİYASƏT

**Bakı şəhəri 2023**

www.redcrescent.org.az www.yardim.et

# 1 GİRİŞ VƏ TARİX

100 ildən artıq şanlı tarixə malik Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) Respublikada dövlət qanunu ilə rolu müəyyən olunmuş ən böyük humanitar təşkilatdır. Cəmiyyət dünyanın ən nəhəng humanitar qurumu olan Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ölkəmizdə yeganə, tam və bərabərhüquqlu üzvüdür.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti dünyanın ən böyük humanitar şəbəkəsi olan Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (IFRC) ilə birlikdə Azərbaycanda və bütün dünyada əhalinin həssas qruplarına daxil olan milyonlarla insanı dəstək və humanitar xidmətlərlə təmin edir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əməkdaşları və könüllüləri hər zaman fövqəladə vəziyyətlərdən öncə hərəkət edərək risklərin azaldılması məqsədilə həyata keçirilən maarifləndirmə tədbirləri vasitəsilə icmaların fövqəladə vəziyyətlərə hazırlığına kömək edir. Cəmiyyətin əməkdaşları və könüllüləri uzun müddət orada qalaraq zərər çəkmiş insanlara həyatlarını yenidən qurmaqda və dirçəlməkdə dəstək göstərir. Milli Cəmiyyət milliyyətinə, irqinə, dini inanclarına, sinfinə və ya siyasi düşüncələrinə görə heç bir ayrı-seçkilik qoymadan insanlara humanitar yardım göstərir.

Şərqdə ilk Demokratik Cümhuriyyətin hərbiyyə naziri əvəzi vəzifəsində çalışan general-leytinant Əliağa Şıxlinski və xarici işlər naziri Fətəli Xan Xoyski tərəfindən 10 mart 1920-ci il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyəti rəsmi olaraq qeydə alınmışdır. 1925-ci il avqustun 15-də isə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ilk nizamnaməsi qəbul olunmuşdur.

1928-ci ildə Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz birinci qurultayını keçirmiş və artıq bir təşkilat kimi formalaşmışdı. Həmçinin tibb bacılarını hazırlamaq məqsədi ilə Cəmiyyətin nəzdində iki illik tibb bacıları kursları təşkil edilmişdi. Kursu bitirənlər Cəmiyyətin strukturlarında çalışmaqla yanaşı, sanitar-maarifləndirmə və qan donorluğunun təliğində çalışırdılar.

2007-ci ildə "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" qanun layihəsi Parlamentin müzakirəsinə təqdim olundu. Milli Məclisdə qanun layihəsi hər 3 oxunuşda müzakirə olundu, əlavə və dəyişikliklər nəzərə alınmaqla 8 may 2007-ci il tarixində Parlament tərəfindən qəbul edildi və dövlət başçısının 22 may 2007-ci il tarixli Fərmanı ilə .qüvvəyə mindi

## 2 SİYASƏTİN MƏQSƏDİ

Hazırkı Siyasət Azərbaycan Qızıl Aypara Cəmiyyətinə fiziki və hüquqi şəxslər tərəfindən edilən ianələrin geri qaytarılması şərtlərini müəyyən edir. AzQAC-a edilən bütün xeyriyyə ianələri dünya təcrübəsində olduğu kimi, ümumiyyətlə geri qaytarılmır. Yalnız müstəsna hallarda AzQAC-a edilən ianələrin geri qaytarılmasına baxıla bilər. Geri qaytarılma ilə bağlı qərarlar ianənin konkret hallarının təhlilindən sonra ayrı-ayrılıqda qəbul edilir. Siyasətin məqsədi aşağıda göstərilənlərdən ibarətdir:

2.1. Fiziki şəxslər (Donor) tərəfindən edilən ianələrin qaytarılma şərtlərini və proseslərini müəyyən etmək;

2.2. Hüquqi şəxslər (Donor) tərəfindən edilən ianələrin qaytarılma şərtlərini və proseslərini müəyyən etmək;

2.3. İanələrin qaytarılmasına dair ümumi şərtləri təbliğ etmək.

## 3 ƏHATƏ DAİRƏSİ

«Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsini rəhbər tutaraq, hazırkı siyasət ianə edən bütün fiziki və hüquqi şəxslərə, o cümlədən ianəni qəbul edən AzQAC-ın bütün yerli bölmələri və regional mərkəzlərinə şamil olunur. Həmçinin, bu sahə üzrə istənilən növ müqavilə, saziş və digər normativ sənədlər hazırkı Siyasətlə tənzimlənir.

Milli Cəmiyyətin bütün struktur bölmələri, o cümlədən, yerli bölmələr, regional mərkəzlər və əlaqədar şöbə və sektor əməkdaşları tərəfindən hazırkı Siyasətdən irəli gələn fəaliyyətə tam şəkildə əməl edilməlidir.

## 4 İANƏLƏRƏ DAİR ÜMUMİ ŞƏRTLƏR

4.1. Növündən və mənbəyindən asılı olmayaraq, istənilən ianə AzQAC-a təhvil verildikdən (çatdırılan, ödənilən, bağışlanan və s.) sonra AzQAC-ın mülkiyyətinə keçir, humanitar məqsədlər üçün təyinatı üzrə xərclənir və hazırkı Siyasətdə başqa şərtlər nəzərdə tutulmayıbsa, Donora geri qaytarılmır.

4.2. Donor tərəfindən AzQAC-a edilən (çatdırılan, ödənilən, bağışlanan və s.) ianələr könüllü və əvəzsiz olduğu üçün ianənin geri qaytarılması nəzərdə tutulmur.

## 5 HÜQUQİ ŞƏXSLƏR TƏRƏFİNDƏN EDİLƏN İANƏLƏR

5.1. Hüquqi şəxslər tərəfindən, imzalanmış İanə Sazişi əsasında, AzQAC-ın bank hesabına edilən pul və digər növ ianələrin geri qaytarılma şərtləri həmin İanə Sazişi maddələrinə əsasən tənzimlənir.

5.2. Hüquqi şəxslər tərəfindən, imzalanmış İanə Sazişi olmadan istifadə edilən istənilən növ ödəniş mənbəyindən asılı olmayaraq, o cümlədən, birbaşa AzQAC-ın bank hesabına edilən pul ianələrinin geri qaytarılma şərtləri hazırkı Siyasətin 7 nömrəli bəndində göstərilən şərtlər əsasında tənzimlənir.

5.3. Hüquqi şəxslər tərəfindən, imzalanmış İanə Sazişi olmadan AzQAC-a edilən və birbaşa nağd (pul) ianələrini istisna olmaqla, digər növ ianələr, o cümlədən:

5.3.1. maddi ianə (hər növ mal, məhsul, dərman, ərzaq, geyim, avadanlıq, tikinti materialları və s.);

5.3.2. xidmət formasında ianə;

5.3.3. daşınar və daşınmaz əmlakın bağışlanması;

5.3.4. daşınar və daşınmaz əmlakın əvəzsiz icarəsi;

5.3.5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hər hansı digər ianə növləri;

heç bir halda Donora geri qaytarılmır.

# 6 FİZİKİ ŞƏXSLƏR TƏRƏFİNDƏN EDİLƏN İANƏLƏR

6.1. Fiziki şəxslər tərəfindən istifadə edilən istənilən növ ödəniş mənbəyindən asılı olmayaraq, o cümlədən, birbaşa AzQAC-ın bank hesabına edilən pul ianələri ümumi hallarda Donora geri qaytarılmır.

6.1.1. Fiziki şəxslər tərəfindən, istifadə edilən istənilən növ ödəniş mənbəyindən asılı olmayaraq, o cümlədən, birbaşa AzQAC-ın bank hesabına edilən pul ianələri istisna olaraq yalnız müstəsna hallarda Donora geri qaytarıla bilər;

6.1.2. Geri qaytarılma ilə bağlı qərarlar hər bir ianənin konkret hallarının təhlilindən sonra ayrı-ayrılıqda qəbul edilir.

6.1.3. İanələrin geri qaytarılma şərtləri hazırkı Siyasətin 7 nömrəli bəndində göstərilən şərtlər əsasında tənzimlənir;

6.2. Fiziki şəxslər tərəfindən, AzQAC-a edilən və birbaşa nağd (pul) ianələri istisna olmaqla, digər növ ianələr, o cümlədən:

6.2.1. maddi ianə (hər növ mal, məhsul, dərman, ərzaq, geyim, avadanlıq, tikinti materialları və s.);

6.2.2. xidmət formasında ianə;

6.2.3. daşınar və daşınmaz əmlakın bağışlanması;

6.2.4. daşınar və daşınmaz əmlakın əvəzsiz icarəsi;

6.2.5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hər hansı digər ianə növləri;

heç bir halda Donora geri qaytarılmır.

# 7 İANƏLƏRİN GERİ QAYTARILMA ŞƏRTLƏRİ

7.1. Fiziki və hüquqi (imzalanmış İanə Sazişi olmadan) şəxslər tərəfindən edilən birbaşa nağd (pul) ianələri istisna olmaqla, digər növ ianələr heç bir halda Donora geri qaytarılmır;

7.2. Fiziki və hüquqi şəxslər tərəfindən edilən istənilən növ ianələr, Donor tərəfindən rəsmi, yazılı şəkildə edilən geri qaytarılma çağırış tarixinə qədər artıq Milli Cəmiyyət tərəfindən istifadə olunduğu halda Donora geri qaytarılmır;

7.3. Yuxarıda qeyd olunan 5, 6, 7.1. və 7.2. bəndlər istisna olmaqla, bu hallarda pul şəklində edilən ianə qaytarıla bilər:

- 7.3.1. AzQAC və ya AzQAC tərəfdaşları tərəfindən edilən istənilən növ texniki səhv baş verərsə, ianə Donora geri qaytararıla bilər;
- 7.3.2. Donorun xəbəri olmadan ianə edilibsə, yəni: oğurlanmış və ya itirilmiş bank kartları ilə ianə edildiyi halda, müvafiq araşdırmalardan sonra Donora geri qaytararıla bilər;
- 7.3.3. Donor tərəfindən təsadüfən səhv məbləğ daxil edildiyi halda, ianənin qismən bir hissəsi qaytarıla bilər;
- 7.3.4. Mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən AzQAC-a daxil olmuş rəsmi müraciət əsasında;
- 7.3.5. Məhkəmə orqanlarının qərarı əsasında və ya Azərbaycan Respublikası qanunvericiliyində qeyd olunan digər hallarda, edilmiş ianələr Donora geri qaytararıla bilər;

7.4. Pul ianələrinin qaytarılması yalnız həmin ianənin Donor tərəfindən edildiyi mənbə vasitəsi ilə icra oluna bilər:

- 7.4.1. AzQAC-ın birbaşa bank hesabına edilən ianələr, həmin ianənin göstərilən bank hesabına;
- 7.4.2. AzQAC-ın saytında bank kartı ilə edilən ianələr, həmin bank kartına;
- 7.4.3. SMS vasitəsi ilə edilən ianələr həmin telefon nömrəsinin balansına;
- 7.4.4. Ödəniş terminalları vasitəsi ilə edilən ianələr, həmin terminalların şirkətləri adına;

7.4.5. POS terminalda bank kartı ilə edilən ianələr, həmin bank kartına;

7.4.6. Mobil tətbiqlər və digər saytlar vasitəsi ilə edilən ianələr, həmin şirkətlərin adına;

7.4.7. Digər ianə mənbəyi ilə edilən ianələr «İanələrin qaytarılmasına dair daxili təlimat» adlı normativ sənəddə qeyd olunan üsullar ilə;

7.5. İanə qutuları vasitəsi ilə edilən ianələr heç bir halda Donora geri qaytarıla bilməz;

7.6. Pul ianələrinin qaytarılması yalnız həmin ianəni edən Donora (fiziki və ya hüquqi şəxsə) qaytarıla bilər. İanənin qaytarılması üçün Donorun identifikasiyası gərəkdir:

7.6.1. Donorun identifikasiyası üçün ianə zamanı Donor tərəfindən qeyd edilən mobil telefon nömrəsi, şəxsiyyət vəsiqəsinin FİN kodu və ya VÖEN daxil olunub və İanələrin İdarəetmə Sistemində qeyd olunubsa, həmin məlumatlar istifadə olunur;

7.6.2. İanə zamanı Donor tərəfindən mobil telefon nömrəsi (və ya şəxsiyyət vəsiqəsinin FİN kodu və ya VÖEN) səhv qeyd olunubsa, edilən ianələr heç bir halda Donora geri qaytarıla bilməz;

7.6.3. Donoru mobil telefon nömrəsi vasitəsi ilə (və ya şəxsiyyət vəsiqəsinin FİN kodu və ya VÖEN) identifikasiya etmək mümkün deyilsə, edilən ianələr heç bir halda Donora geri qaytarıla bilməz;

7.6.4. Donorun identifikasiyası üçün elektron poçt qutusu (e-mail), Ad və Soyad və s. kimi, məlumatlar o cümlədən ayrılıqda ödənişi təsdiq edən qəbz istifadə oluna bilməz;

7.6.5. İanə zamanı Donor tərəfindən qeyd edilən mobil telefon nömrəsi, şəxsiyyət vəsiqəsinin FİN kodu və ya VÖEN məlumatları bir şəxsə, ianə edilməsi üçün istifadə olunan bank kartı digər şəxsə məxsusdursa ianənin geri qaytarılma çağırışı yalnız həmin bank kartı məxsus olan şəxs tərəfindən edilə bilər.

7.7. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması məqsədi ilə edilən ianələr heç bir halda Donora geri qaytararıla bilməz;

7.8. İanələrin qaytarılma prosedurları «İanələrin qaytarılmasına dair daxili təlimat» adlı normativ sənəddə qeyd olunur.

## 8 İANƏLƏRİN GERİ QAYTARILMASI HALLARINDAN SUİ İSTİFADƏ VƏ QANUNSUZ HƏRƏKƏTLƏRİN QARŞISININ ALINMASI

8.1. Donor tərəfindən edilən ianələrin geri qaytarılma çağırışı AzQAC tərəfindən şübhəli (riskli) kimi qəbul oluna və ya Donor tərəfindən qanunsuz hərəkətlər edilməsi kimi düşünülə bilər;

8.2. Qeyri-rezident və əcnəbi, xarici ödəniş mənbələrindən və ya xarici bank kartı istifadə edən Donorlar (fiziki və ya hüquqi şəxslər) tərəfindən edilən ianələrin geri qaytarılma çağırışı AzQAC tərəfindən birbaşa şübhəli (riskli) kimi qəbul olunur və xüsusi qaydada araşdırılır.

8.3. AzQAC tərəfindən şübhəli (riskli) kimi qəbul olunmuş və ya qanunsuz hərəkətlərin edilməsi kimi düşünülən ianələrin geri qaytarılma çağırışlarının xüsusi qaydada araşdırılması üçün Daxili İşlər Nazirliyinə, Mərkəzi Banka, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Elektron Təhlükəsizlik Xidməti, Dövlət Təhlükəsizliyi Xidmətinə rəsmi müraciət oluna bilər.

8.4. Donor (fiziki və ya hüquqi şəxs) tərəfindən AzQAC-ın işgüzar imicinə xələl gətirmək üçün, əvvəlcədən planlaşdırılmış şəkildə ianənin edilməsində səhvlik buraxılması və sonradan ianələrin geri qaytarılma çağırışının tələb edilməsi və ya bu haqda açıq ictimaiyyətdə AzQAC-ın işgüzar imicinin ləkələnməsi və həqiqətə uyğun olmayan məlumatların yayılmasının qarşısının alınması üçün AzQAC tərəfindən Daxili İşlər Nazirliyinə, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Elektron Təhlükəsizlik Xidməti, Dövlət Təhlükəsizliyi Xidmətinə və məhkəmə orqanlarına rəsmi müraciət oluna bilər.

# 9 ƏLAQƏLİ NORMATİV SƏNƏDLƏR

Hazırkı siyasətin müddəaları, o cümlədən, tələb və şərtlərində aşağıda göstərilən sənədlərə istinad edilir:

9.1. «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu;

9.2. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının «Könüllü töhfələrin (ianələrin) qaytarılması siyasəti»;

9.3. «Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu;

9.4. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsi;

9.5. «Resursların Səfərbərliyi və Fandreyzinq Fəaliyyəti üzrə» Siyasət;

9.6. «Resursların Səfərbərliyi, Fandreyzinq və Marketinq Şöbəsinin Reqlamenti»;

9.7. «İanələrin qaytarılmasına dair daxili təlimat»;

9.8. «Reklam informasiyasının yayımı, marketinq və işgüzar imicin qorunması» üzrə Siyasət.

# 10 SİYASƏT ÜÇÜN MƏSULİYYƏT

Hazırkı siyasətin dəyişdirilməsi, həmçinin onun düzgün və vaxtında icrası üzrə məsuliyyət Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraçı katibinə həvalə olunur. Siyasətə yenidən baxılması üçün hər iki ildən bir Resursların Səfərbərliyi, Fandreyzinq və Marketinq Şöbəsinin rəhbəri tərəfindən təşəbbüs qaldırıla bilər.

Milli Cəmiyyətin bütün işçilərinin bu Siyasətdən xəbərdar olmasına və izahat işlərinin aparılmasına dair tədbirlərin (seminarlar, təlimlər, mühazirələr) icrası və icrasına dair nəzarət Milli Cəmiyyətin İnsan Resursları şöbəsinin rəhbərinə həvalə olunur.

# 11 YEKUN MÜDDƏALAR

Bu siyasət ictimai sənəddir və Milli Cəmiyyətin bütün internet (rəqəmsal) resurslarında açıq olaraq paylaşılır.

AzQAC-ın işçiləri, donorları, tərəfdaşları və könüllüləri, həmçinin AzQAC-la bu istiqamətdə əlaqəli olan digər təşkilatlar fəaliyyətlərində bu Siyasətə əməl etməlidir.